# *“DÖRD QAYDA”*

ŞEYXUL-İSLAM MUHƏMMƏD İBN ABDULVAHHAB – ALLAH ONA RƏHMƏT ETSİN –

*Arif Allahyarov*

Rəcəb ayının 28-i 1444-cü il.

## MÜQƏDDİMƏ.

## *BİSMİLLƏHİR-RAHMƏNİR-RAHİM*

Səxavətli, Əzəmətli Ərşin Rəbbi olan Uca Allahdan istəyirəm ki, səni həm bu dünyada, həm də Axirətdə himayə edib qorusun və səni, harada olursansa ol, bərəkətli etsin! Uca Allah səni nemət verildikdə şükr edən, başına bir müsibət gəldikdə səbir edən və günah bir iş gördükdə Allahdan bağışlanma diləyən qullarından etsin! Həqiqətən də, bu üç şeyə əməl etmək əsl xoşbətliyin əlamətidir.

Uca Allah səni Özünə itaət və ibadət etməyə yönləndirsin! Bil ki, Həniflik dini - İbrahim peyğəmbərin (aleyhissələm) dini – ibadətləri yalnız Allaha məxsus edərək yalnız Ona ibadət etməkdir. Uca Allah bütün insanlara məhz bunu (yalnız Ona ibadət etməyi) əmr etmiş və onları məhz buna görə yaratmışdır. Uca Allah buyurur: *"****Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım****"* (əz-Zariyat surəsi, 56-cı ayə).

Uca Allahın səni yalnız Ona ibadət etmək üçün yaratdığını bildikdən sonra bilməlisən ki, həqiqətən, ibadət tövhid olmadan (yəni ibadət tək Allah üçün edilmədən) ibadət adlanmır. Qüsul və dəstəmaz olmadan namaz qəbul olmadığı kimi ibadət də tövhid olmadan qəbul olmur. Əgər bir ibadətə şirk daxil olarsa, həmin ibadəti batil edər. Dəstəmazı pozan hallardan biri baş verən zaman dəstəmaz pozulub batil olduğu kimi ibadətlərdən də hər hansı birinə şirk daxil olarsa, o ibadəti batil edər. Uca Allah buyurur: ***"Müşriklər küfr etdikləri barədə öz-özlərinə şahid olduqları halda onlara Allahın məscidlərini abadlaşdırmaq yaramaz. Onların əməlləri puça çıxmışdır. Onlar Odda əbədi qalacaqlar"*** (Tövbə surəsi, 17-ci ayə).

Sən şirkin bir ibadətə qarışdığı zaman onu batil etməsini və o əməli puç et məsini, əməlin sahibini (şirk edəni) isə (tövbə etməyib bu halda öldüyü təqdirdə) əbədi olaraq Cəhənnəm oduna saldığını bildikdən sonra artıq sənə agah oldu ki, sənin üzərinə düşən ən mühüm və ən vacib məsələ bu barədə elmə sahib olmaqdır. Ümid olunur ki, Uca Allah səni bu tələdən – Allaha şərik qoşmaqdan xilas etsin. İnsan şirkdən Uca Allahın Öz Kitabı Qurani-Kərimdə zikr etdiyi bu dörd qaydanı bilməklə xilas ola bilər.

## *BİRİNCİ QAYDA.*

Bil ki, Allahın Rəsulunun (ona Allahın salavatı və salamı olsun) döyüşdüyü kafirlər etiraf edirdilər ki, həqiqətən də, yaradan, ruzi verən və bütün işləri idarə edib yoluna qoyan Uca Allahdır. Qəbul edib söyləyirdilər ki, yaradan Allahdır, ruzi verən Allahdır, bütün işləri idarə edib sahmana salan Allahdır. Amma bu etirafları və qəbul etmələri onların İslam dininə daxil

olmalarına (müsəlman olmalarınna) kifayət etmədi. Uca Allah buyurur: ***“De: “Sizə göydən və yerdən ruzi verən kimdir? Qulaqlara və gözlərə hakim olan kimdir? Ölüdən diri çıxaran, diridən ölü çıxaran kimdir? İşləri yoluna qoyan kimdir? Onlar deyəcəklər: “Allah!” De: “Bəs belə olduğu halda Allahdan qorxmursunuz?”*** (Yunus surəsi, 31-ci ayə) Uca Allah buyurur: ***“Əgər sən onlardan: “Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir? – deyə soruşsan, onlar mütləq: “Allahdır!” – deyəcəklər. Onlar necə də haqdan döndərilirlər.”*** (Ənkəbut surəsi, 61-ci ayə) Uca Allah buyurur: “***Əgər onlardan özlərini kimin yaratdığını soruşsan, əlbəttə, “Allah!” – deyərlər. Belə olduğu halda haqdan necə döndərilirlər?!*** (Zuxruf surəsi, 87-ci ayə)

***İKİNCİ QAYDA.***

Onlar deyirlər: “Bizim onlara ibadət etməyimizin və onlara üz tutmağımızın səbəbi yalnız və yalnız bizi Allaha yaxınlaşdırmaları və bizlər Onun şəfaətinə nail olmaq üçündür”.

Uca Allah onların bu iddialarını təkzib və rədd edərək deyir: ***“Doğrusu, əsl xalis din ancaq Allaha məxsusdur. Allahı qoyub başqalarını özlərinə dost tutanlar: “Biz, onlara ancaq bizi Allaha daha çox yaxınlaşdırsınlar deyə ibadət edirik!” – deyirlər. Əlbəttə ki, Allah ixtilaf etdikləri məsələlər barədə onarın arasında Öz hökmünü verəcək. Şübhəsiz ki, Allah yalançı və kafir olan kimsəni doğru yola yönəltməz.”*** (Zumər surəsi, 3-cü ayə)

Şəfaət üçün gətidikləri iddia isə bu ayə ilə təkzib və rədd olunur. Uca Allah buyurur: ***“Onlar Allahı qoyub özlərinə nə bir zərər, nə də bir fayda verə bilməyənlərə ibadət edir və: “Onlar Allah yanında bizim şəfaətçilərimizdir!” – deyirlər. De: “Yoxsa Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz? Allah onların qoşduqları şəriklərdən uzaqdır və ucadır.”*** (Yunus surəsi, 18-ci ayə)

Şəfaət iki qismə bölünür:

1. Qadağan olunan şəfaət.
2. İcazə verilən (icazəli) şəfaət.

Qadağan olunan şəfaət yalnız Uca Allahın qadir olduğu şeyləri Allahdan qeyrisindən istəmək, tələb etməkdir. Allah Təala buyurur: ***“Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin olmayacağı gün gəlməmişdən qabaq, sizə verdiyimiz ruzidən Allah yolunda xərcləyin! Kafirlər, əlbəttə ki, zalımdırlar.”*** (əl-Bəqara surəsi, 254-cü ayə)

İcazə verilən şəfaət isə Uca Allahdan istənilən şəfaətdir. Şəfaət edən Allah yanında şəfaət etməklə hörmətli və şərəfli edilmişdir. Şəfaət olunan şəxs isə Uca Allah izin verdikdən sonra Allahın sözündən və əməlindən razı qaldığı şəxsdir. Deməli, Allah həm şəfaət edəndən, həm də şəfaət olunandan razı qalmalıdır və şəfaət etmək üçün Uca Allahın izni olmalıdır. Allah Təala buyurur: ***“Allahın izni olmadan Onun yanında kim şəfaət edə bilər?”*** (əl-Bəqara surəsi, 255)

***ÜÇÜNCÜ QAYDA.***

Allah Nəbisi (sallallahu aleyhi və səlləm) ibadətlərində fərqli-fərqli olan insanların arasından ortaya çıxmışdı. Onların bəziləri günəşə və aya, bəziləri mələklərə, bəziləri peyğəmbərlərə və salehlərə, bəziləri isə ağaclara və daşlara ibadət edirdilər. Allah Rəsulu (ona Allahın salavatı və salamı olsun) onların arasında heç bir fərq qoymadan hamısı ilə vuruşdu. Uca Allah buyurur: ***“Fitnə aradan qalxana qədər və din tamamilə yalnız Allaha həsr edilənədək onlarla vuruşun.”*** (Ənfal surəsi, 39-cu ayə)

O dövrdə bəzi insanların günəşə və aya ibadət etmələrinin sübutu Uca Allahın bu ayəsidir: ***“Gecə və gündüz, günəş və ay Onun dəlillərindəndir. Əgər siz Ona ibadət edirsinizsə, onda günəşə və aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin.”*** (Fussilət surəsi, 37-ci ayə)

Bəzi insanların mələklərə ibadət etmələrinin sübutu Uca Allahın bu ayəsidir***: “O gün Allah onların hamısını toplayacaq, sonra da mələklərə buyuracaq: “Bunlar sizə ibadət edirdilər?” Mələklər deyəcəklər: “Sən paksan, müqəddəssən! Onlar deyil, Sənsən bizim Hamimiz! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti də məhz onlara iman gətirmişdi.”*** (Səba surəsi, 40 və 41-ci ayələr)

Bəzi insanların peyğəmbərlərə ibadət etmələrinin sübutu Uca Allahın bu ayəsidir***: “Allah deyəcək: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Allahı qoyub məni və anamı iki məbud qəbul edin!” – demişdin?” İsa deyəcək: “Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz.”*** (əl-Maidə surəsi, 116-ci ayə)

Bəzi insanların əməlisaleh insanlara ibadət etmələrinin sübutu Uca Allahın bu ayəsidir: ***“De: Allahdan başqa məbud saydıqlarınızı çağırın. Onlar bəlanı sizdən nə uzaqlaşdırmağa, nə də onu başqasına yönəltməyə qadirdirlər. Onların yalvardıqları məbudların özləri də Rəbbinə - hansı daha yaxın olacaq deyə vəsilə axtarırlar. Onun rəhmətindən umurlar, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabından qorunmaq gərəkdir.”*** (İsra surəsi, 56 və 57-ci ayələr)

Bəzi insanların ağaclara və daşlara ibadət etmələrinin sübutu isə Uca Allahın bu ayəsidir: ***“Siz ibadət etdiyiniz Lat və Uzzanı gördünüzmü? Həmçinin üçüncü olan Mənatı da?”*** (ən-Nəcm surəsi, 19 və 20-ci ayələr)

Sünnədən dəlil isə: Əbu Vəqid əl-Leysidən (Allah ondan razı olsun) rəvayət olunan hədisdə deyir: “Biz Allah Rəsulu ilə birlikdə Huneynə səfərə çıxmışdıq. Həmin vaxt biz hələ İslam dinində təzə idik. Müşriklərin bir sidr ağacı var idi. Onun yanında ibadət edirdilər və silahlarını həmin Sidr ağacından asırdılar, guya bu ağac silahlara güc verəcək və onlar döyüşdə yaxşı döyüşüb düşmənlərə qalib gələcəklər. Həmin bu ağaca “Zətu-Ənvat” ağacı deyilirdi. Biz də bir sidr ağacının yanından keçərkən dedik: ***“Ey Allahın Rəsulu! Onların Zətu-Ənvat ağacı olduğu kimi bizə də bir Zətu-Ənvat ağacı düzəlt.”*** Bu vaxt Allah Rəsulu (ona Allahın salavatı və salamı olsun) dedi: ***“Allahu Əkbər! Bu sizdən əvvəlkilərin yoludur. Canım Əlində olan Allaha and olsun ki, İsrail oğullarının Musaya dediyini siz də mənə dediniz: “Ey Musa! Onların ilahları olduğu kimi, bizim üçün də bir ilah düzəlt.” Musa dedi: “Həqiqətən, siz cahil bir tayfasınız.”*** (Əraf surəsi, 138-ci ayə)

## ***DÖRDÜNCÜ QAYDA.***

Həqiqətən də, bizim zamanımızda Allaha şərik qoşanlar əvvəlki dövrlərdə Allaha şərik qoşanlardan daha qəlizdirlər. Ona görə ki, əvvəlkilər rahatlıq və əmin-amanlıq vaxtı Allaha şərik qoşurdular, çətinliyə düşəndə isə ixlasla (səmimi qəlbdən) Allaha dua edib Ona yalvarırdılar. Bizim zamanımızda Allaha şərik qoşanların şirki isə daimidir. Rahatlıq və əmin-ammalıq vaxtında da Allaha şərik qoşurlar, çətinliyə düşəndə də Allaha şərik qoşurlar. Buna dəlil Uca Allahın bu ayəsidir***: “Onlar gəmiyə mindikləri zaman, dini yalnız Allaha məxsus edərək Ona yalvarırlar. Allah onları xilas edib quruya çıxaran kimi, yenə də Ona şərik qoşurlar.”*** (Rum surəsi, 65)

Ən doğrusunu Uca Allah bilir.

Allaha həmd olsun, tamamlandı.

Rəcəb ayının 28-i 1444-cü il.